Qurtuluşla başlanan tərəqqi və yüksəliş

Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyini qoruyan, onun ən layiqli davamçısı Prezident İlham Əliyev isə ərazi bütövlüyümüzü təmin edən lider kimi tariximizə möhür vurub

Fərqli ictimai-iqtisadi formasiyalarda cəmiyyətin dəstəyinə iddia edən hər bir siyasi qüvvənin can atdığı yeganə meyar məhz ictimai inamdır. Yaşadığı zamanın mahiyyətindən asılı olmayaraq, milli-mənəvi dəyərlərini, özünəməxsus xüsusiyyətlərini qoruyub saxlayan Azərbaycan xalqı da gələcək taleyini daim inandığı, etimad bəslədiyi siyasi qüvvəyə etibar edib.

Xalqımızın daim yüksək etimad bəslədiyi belə liderlərdən olmuş Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin xilaskarı və qurucusu kimi çağdaş tariximizə möhürünü vurub. Böyük strateqin Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi və möhkəmləndirilməsi istiqamətində cərəyan edən proseslərin önündə getdiyini birmənalı olaraq təsdiqləyən faktlar kifayət qədərdir. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda cərəyan edən mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslərə qətiyyən biganə qalmayan Ulu Öndər Heydər Əliyev hələ Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtlarda əsl vətənpərvərliklə, lider təəssübkeşliyi ilə müstəqilliyin qazanılması və milli özünüdərkin təmin olunması prosesində yaxından iştirak edib.

Milli özünüdərk və özünütəsdiq istəyinin təcəssümü olaraq XX əsrin sonlarına doğru milli dövlətçiliyini bərpa edən xalqımız müstəqilliyinin ilk illərində yenidən mənəvi sarsıntılara məruz qalıb, üzləşdiyi böhran və faciələr fonunda gələcək barədə nikbin düşünə bilməyib. Bu gün 1991-1993-cü illərin o böhranlı, ağrılı-acılı, faciəli günlərini qəlbində vətən, millət sevgisi olan hər bir azərbaycanlı böyük təəssüf, dərin kədər hissi ilə xatırlayır. İqtisadi-siyasi və mənəvi böhranın qarşısını almaqda aciz olan məlum qüvvələr xalqın inamından sui-istifadə etməklə, əslində, özlərini uçuruma yuvarladılar. Bir daha təsdiqləndi ki, xalqın inam və etimadına söykənməyən, onun iradəsini, istəyini nəzərə almayan hər hansı siyasi qüvvə Azərbaycan cəmiyyətində uzun müddət duruş gətirə bilməz.

Belə acınacaqlı şəraitdə xalqın üzdə olan ziyalıları, sadə və zəhmətkeş insanları öz daxili inamlarına söykənərək respublikanı xaos və anarxiya mühitindən, parçalanma təhlükəsindən, sosial-iqtisadi tənəzzüldən, bir sözlə, böyük fəlakətlərdən qurtaracaq, onu möhkəm sabitlik, davamlı sosial-iqtisadi tərəqqi və yüksəliş yoluna çıxaracaq yeganə düzgün ünvanı göstərdilər. Əksəriyyət yaxşı başa düşürdü ki, məhz Ulu Öndər Heydər Əliyev kimi müdrik strateq və siyasət ustadının rəhbərliyi altında formalaşan siyasi partiya xalqın inamını doğrultmaq, respublikanı üzləşdiyi böyük faciələrdən hifz etmək iqtidarında ola bilər.

Dövlətçiliyin taleyi baxımından ən ağrılı, çətin günlərdə xalq öz gələcəyini inandığı, müdrikliyinə, idarəçilik səriştəsinə, siyasi fəhminə qəlbən güvəndiyi liderə - Heydər Əliyevə etibar edib, onun rəhbərliyi altında üzləşdiyi fəlakətdən xilas olacağına böyük ümid bəsləyib. Ulu Öndər malik olduğu yüksək dövlətçilik və idarəçilik səriştəsi ilə çiyinlərini son dərəcə ağır bir yükün altına verib, məsuliyyətdən çəkinməyib, əsl liderlərə xas şəkildə dövlətinin üzləşdiyi faciələrə biganə qalmayıb. Ümummilli Lider Heydər Əliyevin iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə respublikanın çağdaş tarixində dönüş mərhələsi kimi dəyərləndirilir. Azərbaycan Milli Məclisinin 1997-ci il 27 iyun tarixli qərarı ilə 15 iyunun hər il Milli Qurtuluş Günü kimi qeyd edilməsi də obyektiv reallığa əsaslanır.

Müstəqilliyin dayanıqlı və əbədi olması hər bir dövlətin iqtisadi potensialından bilavasitə asılıdır. Məsələ burasındadır ki, istənilən ölkənin iqtisadi inkişaf istiqaməti onun imkanlarına, şəraitinə müvafiq olur və müxtəlif parametrlərə görə başqalarından fərqlənir. Oxşar imkana, şəraitə malik ölkələr isə qarşılıqlı təsir və nümunələr zəmininində özlərinə xas iqtisadi inkişaf modelləri müəyyən edirlər. Bu baxımdan iqtisadçı alimlər ayrı-ayrı dünya ölkələrinin inkişafını nəzəri cəhətdən kifayət qədər öyrənilmiş ABŞ, İçveç, Almaniya, Yaponiya, Malaysiya, Çin iqtisadi modellərinə nəzərən təsnifatlaşdırır, özünü qabarıq göstərən xüsusiyyətlərə görə ümumiləşdirmələr aparırlar.

Ulu Öndər Heydər Əliyev, bu mənada, bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaradıb. Ümummilli Lider qısa zamanda özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, dövlətsizləşdirməni özündə ehtiva edən, sosialyönümlü mahiyyət daşıyan, habelə xarici iqtisadi əlaqələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran liberal inkişaf modelinin praktik surətdə gerçəkləşdirilməsini təmin edib.

Dünya iqtisadi sisteminə inteqrasiya və Azərbaycanın digər ölkələrlə hərtərəfli əməkdaşlığı Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən birini təşkil edirdi. Ulu Öndər hər zaman bildirirdi ki, ölkələrin iqtisadi sahədə bir-birləri ilə düzgün qurulmuş ikitərəfli əməkdaşlığı bir tərəfdən bu əlaqələrdə iştirak edən hər dövlət üçün mənfəətdirsə, digər tərəfdən, iqtisadi inteqrasiya bütövlükdə dünya iqtisadiyyatının inkişafının yeganə yoludur.

1994-cü ildə dünyanın iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanı bütün dünya üçün önəmli mərkəzə çevirib, bu hadisə Azərbaycanda ictimai-siyasi sabitliyin qorunmasına, müstəqilliyimizin əbədiliyinə, respublikamızda demokratik proseslərin inkişafına əsas yaradan amilləri daha da möhkəmləndirib. Uzun illər ərzində xalqın əlindən alınan halal sərvətləri onun özünə qaytarılıb, həyata keçirilən uğurlu neft strategiyası hesabına Azərbaycan dünyanın inkişaf etmiş dövlətləri - ABŞ, Fransa, Almaniya, İngiltərə, Yaponiya, Çin, Rusiya və digər ölkələrlə möhkəm iqtisadi və siyasi əlaqələr yaradıb. Ümummilli Liderin irəli sürdüyü ideya əsasında "əsrin boru kəməri" kimi tarixilik qazanmış Bakı-Tbilisi-Ceyhan neft kəməri dünyanın geosiyasi mənzərəsini dəyişib.

Ulu Öndərin böyük müdriklik və iqtisadi hesablama əsasında müəyyənləşdirdiyi iqtisadi inkişaf konsepsiyasının özəyini üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulan islahatlar təşkil edib: birinci mərhələdə güclü dövlət tənzimlənməsi ilə böhrandan çıxmaq, ikinci mərhələdə iqtisadiyyatın sabitliyini təmin etmək, üçüncü mərhələdə isə iqtisadi dirçəlişə nail olmaq. Hər bir mərhələyə uyğun həyata keçirilən iqtisadi islahatlar nəticəsində 1996-cı ildə respublika iqtisadiyyatında sabitlik təmin edilib, 1997-ci ildən sosial-iqtisadi inkişafda müsbət meyillər özünü göstərməyə başlayıb. Dövlət mülkiyyətinin xalqın mənafeyinə uyğun formada özəlləşdirilməsi sərbəst bazar rəqabəti prinsiplərinin, xüsusi mülkiyyətçiliyin bərqərar olmasına, habelə milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasına, insanların şüurunda, həyat tərzində əsaslı dəyişikliklərin baş verməsinə səbəb olub.

Ulu Öndər Heydər Əliyevin uzun illər diqqət yetirdiyi əsas məsələlərdən biri də neft gəlirlərindən düzgün istifadə etmək, "Holland sindromu"na imkan verməməkdən ibarət idi. "Neft təkcə indiki deyil, həm də gələcək nəsillərə mənsubdur" - deyən Ümummilli Lider iqtisadiyyatın birqütblü inkişafının yolverilməzliyini daim vurğulamaqla yanaşı, istehsal sahibkarlığının geniş vüsət almasına, fəaliyyətini dayandırmış bir sıra iri müəssisələrin işə salınmasına, bir sözlə, qeyri-neft sektorunun inkişafına xüsusi diqqət ayırırdı. Neftdən qazanılan gəlirlərin indiki və gələcək nəsillərin mənafeyi naminə düzgün istifadə olunması üçün zəruri tədbirlər həyata keçirilib, Dövlət Neft Fondunun yaradılması bu istiqamətdə mühüm addım olub.

Həmin dövrdə aqrar islahatları daha da dərinləşdirmək, onun ikinci mərhələsinə keçidi təmin etmək, kəndli-fermer təsərrüfatlarının bazar iqtisadiyyatı prinsiplərinə cavab verən, keyfiyyətcə yeni forma, prinsiplər və qaydalara əsaslanan, müasir tipli kollektiv əməyin tətbiqi sahələrini yaratmaq məqsədilə də ciddi addımlar atılıb. Texniki servis mərkəzləri yaratmaq, fermerlərin maliyyə problemlərinin güzəştli kreditlərlə həllinə kömək etmək, bir sözlə, iqtisadi inkişafda, ÜDM istehsalında aqrar sektorun payının artımına nail olmaq üçün zəruri tədbirlər həyata keçirilib. Ulu Öndər aqrar sektorda sürətli islahatların aparılmasına mühüm diqqət yetirərək torpağı əsl sahibinə - kəndlilərə qaytarmağa nail olub, bu sahəni bir sıra vergilərdən azad etməklə nümunəvi fermer təsərrüfatlarının formalaşmasına əsaslı dəstək verib. Görülən işlərin nəticəsi kimi, özəl sektorun milli iqtisadiyyatdakı xüsusi çəkisi 1996-cı ildəki 27 faizdən 2003-cü ildə 70 faizə yüksəlib.

Bütün bunlar son nəticədə ölkəmizdə iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni modelinin - "Azərbaycan modeli"nin formalaşmasına səbəb olub. Bu modelin fərqləndirici xüsusiyyətini isə inkişaf üzrə müəyyən olunmuş istiqamətlərin sahəvi proqramlarla əlaqələndirilməsi, iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan, gələcəyə hesablanan və cəsarətli qərarların qəbul olunması, sosialyönümlülüyün gözlənilməsi, milli mentalitetin nəzərə alınması və mütərəqqi dünya təcrübəsinə arxalanması təşkil edir.

Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının ümumxalq səsverməsi yolu ilə hakimiyyətə gələn və səlahiyyətlərini sonadək inamla icra edən ilk Prezident olduğunu da xüsusi vurğulamaq lazımdır. Orta və yaşlı nəslin nümayəndələri ötən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində respublikamızda hakimiyyət naminə gedən amansız mübarizənin xalqın, dövlətin taleyindəki fəsadlarını qətiyyən unutmayıblar. Ümummilli Lider Heydər Əliyev təkcə prezidentlik səlahiyyətlərini Konstitusiyaya müvafiq müddətdə başa vuran prezident kimi deyil, həm də hakimiyyəti sivil, demokratik seçkilər yolu ilə ən layiqli siyasi davamçısına ötürən dövlət başçısı kimi tarixə öz möhürünü vurub.

İctimai inam qazanmaq istəyən hər bir siyasi qüvvə konkret hədəflərini, məqsədlərini bəyan edir, insanların qarşısına müxtəlif vədlərlə çıxır. Etiraf edək ki, bir çox hallarda irəli sürülən məqsədlər, ideyalar nə qədər cəlbedici görünsə də, bütün bunların real icra mexanizminə əsaslanmaması bəzən bu ideyaların, məqsədlərin kağız üzərində qalmasına rəvac verir. İnsanları populist sözdənsə, real, konkret iş, bir qədər də dəqiqləşdirsək, bu işin konkret nəticələri daha çox maraqlandırır.

Ümummilli Lider Heydər Əliyevin ən layiqli siyasi varisi cənab İlham Əliyev 2003-cü ilin oktyabrında keçirilmiş prezident seçkilərinə "Əsl siyasət konkret fəaliyyətdən, real iş görməkdən ibarətdir" devizi ilə qatılmışdı. Bu deviz, əslində, həmin dövrə qədərki fəaliyyəti ilə də insanların nəzərində zirvələrə ucalmış cənab İlham Əliyevin xalq üçün çalışmaq, onun arzu və istəklərini real, əməli fəaliyyət müstəvisində, konkret platforma əsasında gerçəkləşdirmək, "Hər bir azərbaycanlının layiqli Prezidenti olmaq" istəyinin yığcam, lakin son dərəcə dərin, ümumiləşdirilmiş fəlsəfi məzmununu özündə ehtiva edirdi.

Azərbaycan Prezidenti cənab İlham Əliyev ötən 19 ildə xalq qarşısına hər zaman inkişafyönümlü proqram və ideyalarla çıxıb, hakimiyyət komandasının yenilikçi və çevik idarəetmə qabiliyyəti dövlət başçısının yüksək şəxsi keyfiyyətlərindən, sosial məsuliyyət prinsipinə həssas yanaşmasından irəli gəlib: *Bu məqamda cənab İlham Əliyevin Nazirlər Kabinetinin iclaslarının birində söylədiyi bu qətiyyətli fikirləri xatırlatmaq yerinə düşər: "Ölkəmizin uğurlu inkişafı üçün vətəndaş-məmur münasibətləri mühüm əhəmiyyət kəsb edir. Azərbaycan bu sahədə də nümunəvi ölkə olmalıdır. Məmurlar yaddan çıxarmamalıdırlar ki, onlar xalq üçün işləyirlər, onlar xalqın xidmətçiləridir. Dəfələrlə demişəm ki, mən birinci xidmətçiyəm. Xalqın birinci xidmətçisi Prezident olmalıdır, çünki xalq bizə inanır, bizə bu missiyanı aparmağı həvalə edib, tapşırıb. Biz bütün məmurlar da bu yüksək etimadı doğrultmalıyıq".*

Prezident İlham Əliyevin iqtisadi siyasətinin əsasında "Güclü dövlət, sabitlik və sosial rifah" tezisi dayanır. Bu da təsadüfi deyildir - güclü iqtisadiyyat qurmadan güclü dövlətə nail olmaq, insanların yüksək sosial rifahını təmin etmək qeyri-mümkündür. Neft gəlirlərinin iqtisadiyyatın vacib sahələrinə, xüsusən də qeyri-neft sektoruna, istehsal sahibkarlığına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin gücləndirilməsi Azərbaycanda həyata keçirilən sosialyönümlü iqtisadi siyasətin ana axarını təşkil edir.

Prezident İlham Əliyevin son 19 ildə ölkəyə rəhbərliyinin ən parlaq nəticəsi ondan ibarətdir ki, Azərbaycan, sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkəyə çevrilib. Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xəti, dövlətçilik siması, inkişaf yolu var. Ölkə iqtidarının milli maraqlara əsaslanan siyasəti, iqtisadi inkişaf və demokratikləşdirmə, hüquqi dövlət quruculuğu, effektiv diplomatiya istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyəti də məhz milli müstəqilliyin praktik surətdə gerçəkləşdirilməsini təmin edir.

Son illər bir sıra mühüm beynəlxalq tədbirlərin keçirilməsində Bakı şəhərinin seçilməsi respublikamızın beynəlxalq nüfuzunu daha da yüksəldir. Bu günlərdə paytaxtda keçirilmiş Bakı Enerji Həftəsi, "Formula -1" yarışları, Şuşada təşkil olunan tədbirlər ölkəmizin beynəlxalq imicini daha da yüksəldir, onun qlobal tədbirlərə layiqincə rəhbərlik etmək zəminini nümayiş etdirir. Azərbaycan bu gün müxtəlif mədəniyyətlərin, qədimliklə müasirliyin qovuşduğu məkan olaraq bu məqsədlərə yönəlmiş mühüm təşəbbüslərlə çıxış edir.

Ulu Öndər Heydər Əliyev əgər müstəqil Azərbaycan dövlətçiliyinin qoruyucu xilaskarı kimi tariximizdə əbədiyaşarlıq qazanıbsa, onun ən layiqli siyasi davamçısı olan Prezident İlham Əliyev böyük qətiyyət, əzmkarlıq və xalq dəstəyi sayəsində ölkəmizin ərazi bütövlüyünü təmin edən, Qarabağ və Şərqi Zəngəzuru 30 illik işğaldan azad edən, milli qüruru yüksəldən Lider kimi tariximizə sanballı möhürünü vurub. Xalqımız İkinci Qarabağ müharibəsindəki parlaq qalibiyyəti ilə torpaqlarımızın işğalına son qoyub, iki əsrə qədər davam edən Qarabağ münaqişəsinin həllinə nail olub.

Azərbaycanın iqtisadi potensialı, Avropanın enerji təhlükəsizliyində sözünü deməsi ümumən bütün dünyada ölkəmizin etibarlı tərəfdaş imicini formalaşdırıb, onu beynəlxalq münasibətlərin fəal aktoruna çevirib. Bütün bu amillər Vətən müharibəsi zamanı rəsmi Bakını müəyyən ədalətsiz təzyiq və təhdid cəhdlərindən qoruyub. Prezident İlham Əliyevin Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində vurğuladığı kimi, bu gün Azərbaycan böyük iqtisadi potensialı olan ölkələrdəndir: *"Dediyim kimi, birincisi, bizim neft-qaz sahəsində nəhəng təcrübəmiz var, biz ənənəvi şirkətlərlə tərəfdaşlığımıza böyük dəyər veririk. Biz heç vaxt imza atdığımız müqavilənin bir sözünü belə dəyişməmişik. Biz sürətlə inkişaf edirik və əlbəttə ki, Qarabağda və Zəngəzurda aparılan yenidənqurma işləri iqtisadi potensialımızı artıracaqdır".*

Azərbaycan qalib ölkə kimi bu gün regiondakı yeni siyasi reallıqları diktə edir. İkinci Qarabağ müharibəsindən sonra müxtəlif əsassız iddia və bəhanələrlə danışıqlar masası arxasına oturmaqdan imtina edən Ermənistan Azərbaycanın diplomatik gedişləri qarşısında yeni geosiyasi vəziyyətlə barışmağa məcbur olub. İrəvanın son bir il yarımda regiondakı vəziyyəti öz xeyrinə dəyişmək üçün apardığı diplomatik-siyasi gedişlər uğursuzluğa düçar olub. Ermənistanın münaqişənin guya həll olunmaması barədə iddiaları, danışıqların ATƏT-in Minsk qrupu formatında davam etdirilməsinə nail olmaq, separatçıları tərəf kimi təqdim etmək cəhdləri beynəlxalq platformalarda dəstək almayıb. Rəsmi Bakı isə yürütdüyü çevik diplomatiya nəticəsində regionda sabitliyə və genişmiqyaslı iqtisadi əməkdaşlığa xidmət edən sülh gündəliyinin müxtəlif güc mərkəzləri tərəfindən qəbuluna nail olub. Bu gün dünyanın əsas güc mərkəzləri də məhz Azərbaycanın təklif etdiyi sülh prinsiplərini dəstəkləyirlər.

Azərbaycan xalqının Vətən müharibəsində qazandığı mənəvi zəfərin ruhu, bunun ictimai təfəkkürə təsiri, hərbi əməliyyatlar zamanı əldə edilmiş qələbələr qədər möhtəşəmdir. Qələbə əzmi milli birliyimizi gücləndirib, hər birimizdə sarsılmaz inam hissi yaradıb, Vətənin keçmişi, bu günü və gələcəyi qarşısında ictimai məsuliyyət duyğusunu yüksəldib. İndi qalib xalq olaraq qarşımızda dayanan ən mühüm hədəflərdən biri də məhz milli birliyi qorumaq, hakimiyyət-xalq münasibətlərindəki yüksək etimada xələl gətirə biləcək hər hansı neqativ meyillərə yol verməməkdir.

44 günlük Vətən müharibəsi geridə qalsa da, 8 noyabr Zəfərindən başlanan yeni qürur tariximiz davam edir. Azərbaycanın qazandığı nailiyyətlərlə, azad olunmuş torpaqlarımızın dirçəlişi ilə, bu ərazilərdə geniş vüsət almış bərpa-quruculuq tədbirləri, Vətənimizdən dünyaya açılan qapılarla, sosial-iqtisadi fürsətlərlə bu Zəfərin tarixi miqyası daha da böyüyür, genişlənir. Ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməsi fonunda Azərbaycan doğma torpaqlarında məcburi köçkünə çevrilmiş insanların doğma yurdlarına qayıdışının təmini, həmin ərazilərin iqtisadiyyatın xüsusi əlavə dəyər yaradan sektorlarına dövriyyəyə cəlb edilməsi üçün əlverişli imkanlar qazanıb. İlk növbədə bu ərazilərdə zəruri infrastrukturların yaradılması və azad edilmiş ərazilərin potensialının qiymətləndirilməsi məqsədilə müxtəlif sosial-inkişaf proqramlarının hazırlanması nəzərdə tutulub.

Böyük qayıdış proqramının icrasını və tikinti-quruculuq işlərinin ahəngdarlığını şəxsən təmin edən, nəzarətdə saxlayan Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın post-müharibə dövründə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Laçın, Kəlbəcər və Şuşaya səfərləri zamanı mühüm infrastruktur və sosial xidmət obyektləri istifadəyə verilib, yeni layihələrin təməli qoyulub. Zəfər yolunun, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Zəngilan və Laçında yeni hava limanlarının əsasının qoyulması quruculuq və dayanıqlı məskunlaşmanın nəzərdə tutulduğundan da sürətlə aparıldığını təsdiq edir.

Bu gün Azərbaycanın təkcə Cənubi Qafqazda deyil, ümumən Avropa geosiyasi arealında müstəqil xarici və daxili siyasət yürütməsi, milli maraqlarını müdafiə etməsi, ilk növbədə ölkəmizin iqtisadi gücü ilə şərtlənir. İqtisadi-maliyyə resursları Azərbaycana heç bir ölkədən asılı olmadan qarşıya qoyduğu hədəflərə yetişmək imkanı yaradıb. Cənubi Qafqazda hər zaman for-post qismində çıxış edən Ermənistanın başqa ölkələrdən siyasi və iqtisadi asılılığı, üzləşdiyi miskin vəziyyəti bu reallığı bir daha təsdiq edir.

Vətən müharibəsindəki qələbədən sonra Azərbaycanda dövlət idarəçiliyinin daha da müasirləşdirilməsi, vətəndaş cəmiyyətinin dövlət qurumlarının fəaliyyətinə ictimai nəzarəti təmin etməsi, ümumiyyətlə, ictimaiyyətin qərarların qəbulu prosesinə təsirinin artırılması, o cümlədən ictimai iştirakçılıq ciddi vəzifələr kimi qarşıda durur. Azərbaycan Respublikası Prezidentinin 19 may 2022-ci il tarixli "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" fərmanı bu baxımdan vətəndaş məmnunluğuna, insan hüquq və azadlıqlarının təminatına, hüquqi maarifləndirməyə, qanunvericlik bazasının formalaşdırılmasına xidmət edən hüquqi islahatların keyfiyyətcə yeni mərhələdə davam etdirilməsinə etibarlı zəmin yaradır. İnanırıq ki, yeni mərkəzin fəaliyyəti bir sıra sahələrlə yanaşı, ölkəmizdə sahibkarlıq fəaliyyətini tənzimləyən qanunverici-hüquqi aktların müasirləşdirilməsini, süni müdaxilə və bürokratiyaya rəvac verən halların aradan qaldırılmasını təmin edəcək.

Ümumilikdə, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə son 4 ildə mərkəzi və yerli icra hakimiyyətləri orqanlarında, digər dövlət qurumlarında kadr dəyişikliklərinin yeni mərhələsi başlayıb. Şəffaflığa, bürokratik amillərin aradan qaldırılmasına xidmət edən struktur islahatlarının, tətbiq olunan innovativ idarəetmə modellərinin başlıca mahiyyəti insan amilini ön plana çəkməkdir. Dövlət başçısının yeni təyinatlarla bağlı qəbul etdiyi şəxslər qarşısında müəyyənləşdirdiyi vəzifələr bir daha göstərir ki, Azərbaycanda başlanmış idarəçilik islahatları sistemli xarakter daşıyır və bunun üçün ciddi siyasi iradə mövcuddur.

Mərkəzi və yerli icra hakimiyyəti strukturlarında şəffaflığa, hesabatlılığa, "Açıq cəmiyyət" quruculuğu prinsiplərinə əsaslanan idarəetmə modelinin formalaşdırılması yeni mərhələdə aparılan kadr siyasətinin əsasını təşkil edir. Kadrların seçimi zamanı bəzi mərkəzi və icra hakimiyyətlərinin mənfi imicinin aradan qaldırılması, onlara qarşı ictimai etimadın yüksəldilməsi vacib meyarlardan biri kimi nəzərə alınır. Son illərin təcrübəsi göstərir ki, kadr seçiminə daha tələbkar yanaşma idarəçilik sistemində neqativ və bürokratik amilləri aradan qaldırır, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə tədbirlərinin səmərəli nəticələr verməsini şərtləndirir.

Şəffaflığın təmini istiqamətində aparılan islahatlar ölkədə iqtisadi inkişaf və tərəqqi üçün də etibarlı zəmin yaradır. Dövlət-sahibkar münasibətlərinin inkişafı, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin aradan qaldırılması, biznes subyektlərinin rəqabət qabiliyyətinin, ixrac imkanlarının genişləndirilməsi sahəsində kompleks tədbirlər həyata keçirilir. "E-hökumət" quruculuğu istiqamətində atılan addımlar, tətbiq olunan xidmətlər, habelə "ASAN xidmət" konsepti biznes mühitinin yaxşılaşmasında vacib rol oynayır. İş adamları ilə dövlət qurumları arasında subyektiv yanaşma və bürokratik amillərə yol açan birbaşa təmasların aradan qaldırılması, elektron xidmətlərin genişləndirilməsi beynəlxalq səviyyədə təqdir olunur.

Dövlət maliyyə dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, pandemiya ilə bağlı biznes dəstək paketlərinin reallaşdırılması, güzəştli kreditlərə çıxış imkanlarının yaxşılaşdırılması, real sektor üzrə biznes layihələrinin dəstəklənməsi qeyri-neft sektorunun inkişafında xüsusilə mühüm rol oynayır. Bundan əlavə, inkişafın konseptual əsaslarını təşkil edən strateji yol xəritələri iqtisadiyyatın şaxələndirilməsi, rəqabət qabiliyyətliliyinin gücləndirilməsi, neftdən asılılığın aradan qaldırılması, keyfiyyətli ixrac məhsullarının artırılması baxımından səmərəli nəticələrə yol açır.

Dünyadakı siyasi-iqtisadi təlatümlər, eləcə də xüsusi karantin rejiminin davam etdiyi bir şəraitdə ölkə iqtisadiyyatının 2022-ci ilin yanvar-may aylarında dinamik inkişaf tempini qoruyub saxlaması, ümumi daxili məhsulun 7.2 faiz, qeyri-neft sektorunun 11.5 faiz, qeyri-neft sənayesinin 15 faizdən çox artması, ilk növbədə, qeyri-neft sektorunun, sahibkarlığın inkişafına dəstək tədbirlərinin bəhrələridir. ÜDM istehsalında qeyri-neft sektorunun xüsusi çəkisinin davamlı şəkildə artımı gömrük və vergi inzibatçılığı sahəsində aparılan institusional islahatlar, şəffaflaşdırma tədbirləri ilə sıx şəkildə bağlıdır.

Bütün bunlar bir daha təsdiqləyir ki, 15 İyun Milli Qurtuluş Günündən başlanan inkişaf yolu keyfiyyətcə yeni mərhələdə böyük uğurlarla zəngindir. Bu gün Azərbaycan dünya miqyasında iqtisadi inkişaf modeli olan, qısa müddətdə makroiqtisadi göstəricilər əldə edən, qlobal layihələri uğurla reallaşdıran müstəqil və qalib dövlət kimi tanınır. Ölkəmizdə həyata keçirilən siyasi, iqtisadi və hüquqi islahatlar keçid dövrünü yaşayan bir çox dövlət üçün örnək göstərilir. Bu gün Azərbaycanda xalqla hakimiyyət arasında çox güclü mənəvi birlik, həmrəylik var və bütün bunların sayəsində də ölkə iqtidarı böyük iqtisadi-mədəni inqilablara müəlliflik edir.

Qüdrət KƏRİMOV,
"Xəzər" QSC-nin sədri,
iqtisad elmləri doktoru